***Radə ABBASOVA***
*AMEA Folklor İnstitutu*
*https://doi.org/10.59849/2309-7922.2025.2.180*

# QƏRBİ AZƏRBAYCAN AŞIQ VƏ EL ŞAİRLƏRİNİN YARADICILIĞINDA ESTETİK DƏYƏRLƏR

**Xülasə**

Aşıq sənətinin Azərbaycan milli mədəniyyət sistemi tarixində müstəsna dərəcədə böyük rolu vardır: milli mədəniyyətimizin bütün varlığını və mahiyyətini aşıq sənəti və yaradıcılığından kənarda təsəvvürə gətirmək mümkün deyildir. Bu, ilk növbədə onunla bağlıdır ki, aşıq yaradıcılığı folklor hadisəsidir və bu amil onun milli mədəniyyət sistemindəki bütün tarixi funksionallığının əsasında durur.

Qərbi Azərbaycan aşıqlarının yaradıcılığında estetizmin, əsasən, dörd səviyyəsi müşahidə olunur:

1. Dini-ilahi dəyərlərlə bağlı mənəvi gözəlliklərin tərənnümü;
2. Məhəbbətlə bağlı gözəlliklərin tərənnümü;
3. Təbiətlə bağlı gözəlliklərin tərənnümü;
4. İctimai dəyərlərlə bağlı gözəlliklərin tərənnümü.

Məqalədə Qərbi Azərbaycan aşıq və el şairlərinin yaradıcılığından tədqiqata cəlb olunmuş bu nümunələr göstərir ki, həmin poeziyada tərənnüm olunan bütün estetik dəyərlər ilahi nurla məna kəsb etmişdir. Aşıq və el şairləri insanı, təbiəti, canlı və cansız dünyanı Allahın yaratdığı varlıqlar kimi qəbul etmiş, insana və təbiətə olan hörmət-izzəti, sevgi və məhəbbəti Uca Allaha olan sevgi kimi tərənnüm etmişlər. Elə Qərbi Azərbaycan aşıq və el şairlərinin yaradıcılığındakı estetik dəyərlər bu səbəbdən bu gün də yaddaşlarda yaşamaqda, sevilməkdə və insanlara gözəllik aşılamaqdadır.

**Açar sözlər:** Aşıq sənəti, aşıqlar, el şairləri, Qərbi Azərbaycan, estetik dəyərlər, bədii gözəllik

***Rada ABBASOVA***

## THE AESTHETIC VALUES IN THE ACTIVITY OF ASHIQ AND FOLK POETS OF THE WESTERN AZERBAIJAN

**Summary**

Ashiq art has an exceptional role in the history of the national cultural system of Azerbaijan: it is impossible to imagine the whole existence and essence of our national culture outside of ashiq art and creativity. This is primarily due to the fact that ashiq activity is a folklore phenomenon and this factor underlies all its historical functionality in the national culture system.

Four levels of aestheticism are observed in the activities of the ashiqs of the Western Azerbaijan:

1. Glorification of spiritual beauties associated with religious-divine values;

2. Glorification of beauties associated with love;

3. Glorification of beauties associated with nature;

4. Glorification of beauties associated with social values.

These examples involved in the study of the works of the ashiqs and folk poets of the Western Azerbaijan show that all the aesthetic values in this poetry had the meaning of divine light. The folk poets and ashiqs accepted the human, nature, the living and inanimate world as beings created by Allah, glorifying respect for the human, nature-glory and love as love for the Almighty. The aesthetic values in the activities of the Western Azerbaijani ashiqs and folk poets are therefore still alive in memory, loved and instilled beauty in people.

**Key words:** Ashiq art, ashiqs, folk poets, Western Azerbaijan, aesthetic values, artistic beauty

***Рада АББАСОВА***

## ЭСТЕТИЧЕСКИЕ ЦЕННОСТИ В ТВОРЧЕСТВЕ ЗАПАДНОАЗЕРБАЙДЖАНСКИХ АШЫГОВ И НАРОДНЫХ ПОЭТОВ

### Резюме

Ашыгское творчество имеет исключительно большую роль в истории системы национальной культуры Азербайджана: невозможно представить все существование и сущность нашей национальной культуры за пределами ашыгского искусства и творчества. В первую очередь это связано с тем, что ашыгское творчество является фольклорным явлением и этот фактор лежит в основе всех его исторических функций в системе национальной культуры.

В творчестве западноазербайджанских ашыгов наблюдаются в основном четыре уровня эстетизма:

1. Воспевание духовной красоты, связанной с религиозно-божественными ценностями;

2. Воспевание красоты, связанной с любовью;

3. Воспевание красоты, связанной с природой;

4. Воспевание красоты, связанной с общественными ценностями.

В статье, примеры, которые были вовлечены в исследование из творчества западноазербайджанских ашыгов и народных поэтов показывают, что все эстетические ценности, воспетые в этой поэзии, приобрел смысл с божественным светом. Ашыги и народные поэты восприняли человека, природу, живой и неживой мир как созданные Богом существа, воспевали уважение, любовь и привязанность к человеку и природе как любовь к Всевышнему. Именно по этой причине и по сей день эстетические ценности в творчестве западноазербайджанских ашыгов и народных поэтов продолжают жить в памяти, любимы и прививают людям красоту.

**Ключевые слова:** ашыгское искусство, ашыги, народные поэты, Западный Азербайджан, эстетические ценности, художественная красота

Aşıq sənətinin Azərbaycan milli mədəniyyət sistemi tarixində müstəsna dərəcədə böyük rolu vardır: milli mədəniyyətimizin bütün varlığını və mahiyyətini aşıq sənəti və yaradıcılığından kənarda təsəvvürə gətirmək mümkün deyildir. Bu, ilk növbədə onunla bağlıdır ki, aşıq yaradıcılığı folklor hadisəsidir və bu amil onun milli mədəniyyət sistemindəki bütün tarixi funksionallığının əsasında durur.

Folklor hər bir mədəniyyətin tarixinin böyük bir mərhələsidir. Onun əsas əlaməti şifahi və kollektiv yaradıcılıq hadisəsi olmasındadır. Yəni folklor, sadəcə olaraq, təkcə bədii sənət hadisəsi yox, ümumiyyətlə, xalqın tarixi düşüncə sistemidir. Aşıqlar isə bu düşüncə sisteminin əsas yaradıcıları və daşıyıcılarıdır.

S.Rzasoy bu xüsusda yazır ki, "hər bir xalqın folklor yaddaşının daşıyıcı tipləri var: onlar yaddaşın qoruyucuları və yaşadıcılarıdır. Azərbaycan folklor yaddaşının daşıyıcıları içərisində əlahiddə yerdə duran, milli yaddaşın bütün poetik yükünü və tarixi-mədəni məsuliyyətini daşıyan sənətkar aşıqdır. Milli yaddaş sistemini bir orqanizmə bənzətsək, aşıq sənəti və yaradıcılığı həmin sistemin onurğa sütununu təşkil edir. Aşıqlıq ənənəsinin zəiflədiyi müasir qloballaşma şəraitində onun qorunması, qayğı göstərilməsi bizləri biz edən, millət edən, milli kimliyimizi itməyə qoymayan genetik yaddaş sistemimizin yaşaması deməkdir. Milli tarix, milli kimlik, milli özünüdərk, milli özünü yaratma kimi bütün dəyərlər aşığın varlığında kəsişməklə onu milli mövcudluğumuzun tarixi diskursu statusunda göz bəbəyimiz kimi qorumağı bizlərdən tələb edir. "Aşıq" demək – "millət", "xalq", "dövlət" və "milli tarix" deməkdir. Milli kimlik tariximizin banisi Şah İsmayıl Xətai Azərbaycan dövləti və kimliyini aşığın sazı və sözü ilə qurdu. O, milli dövlətçilik ideologiyasının xalqın ruhunu passionarlaşdıran bütün dəyərlərini insanlara aşıqların və el şairlərinin sazı, sözü, nəfəsi ilə çatdırıb, onları vahid milli dövlətdə birləşdirə bildi. Azərbaycanın bir xalq kimi tarixi taleyinin "yazıldığı" həmin dövrdə Xətainin yanında bir tərəfdə əllərində qılınc tutmuş qazi-ərənlər, o biri tərəfində sinələrində saz və dillərində "Vətən" sözü olan aşıq-ərənlər durmuşdular. Məhz XVI əsrdə Şah babamızın sərkərdəliyi ilə aşıqlar, el şairləri ilahi-irfani dəyərləri tərənnüm edən sənətkar mərtəbəsindən milli kimlik və dövlətçilik ideyalarını tərənnüm və təbliğ edən, vətənçilik, yurdçuluq idealları uğrunda savaşan eşq ərənləri məqamına qalxdılar. Bu ruh, bu ali məqam əbədi olaraq aşıqların yaddaşında yaşamaqla xalqımızı tarixin ən çətin günlərində məhv olmağa qoymamış, milli varlıq və kimliyimizi qorumuşdur. Qafqaza ayaq açan rus işğalçıları və onların iyrənc xislətli nökərləri olan ermənilər hər vəchlə Azərbaycan-türk milli kimliyini məhv etməyə çalışanda aşıqların sözündə və sazında yaşayan milli yaddaş xalqımızın milli-mənəvi düşüncə sistemini dağılmağa, məhvə məruz qalmağa imkan verməmişdir. Saz və söz xalqımızın daim milli ruhunu oyatmış, ona milli kimliyini xatırlatmış, qanını və genini cuşə gətirərək milli kimlik savaşına ruhlandırmışdır. Heç təsadüfi deyildir ki, Qərbi Azərbaycanda ermənilər Rusiya imperiyasının çirkin demoqrafik siyasətini həyata keçirərək türk əhalini təcrid, inkar, deportasiya və s. antimilli təqiblərə məruz qoyanda aşıqlar erməni ideoloqlarına "güldən-bülbüldən", "aşiq-məşuqdan" nəğmələr oxuyan "təsirsiz", "zərərsiz"

ünsürlər təsiri bağışlasa da, məhz onlar milli varlığımızı ayaqda saxlamağa nail oldular" (9, s. 25).

Müəllifin bu yanaşmasında aşıq sənətinin təkcə tarixi-mədəni mahiyyətinin əsas cəhətləri deyil, eyni zamanda, fenomenal xüsusiyyətləri, yəni ilk baxışdan görünməyən, anlanmayan, gizlin qalan, lakin əsas olan xüsusiyyətləri də öz əksini tapmışdır. S.Rzasoyun yanaşmasından aşağıdakılar aydın olur:

a) Aşıqlar yaradıcı subyekt kimi folklor kodları ilə təcəssüm olunmuş milli yaddaşın daşıyıcıları və qoruyucularıdır.

b) Onlar milli mədəniyyət sisteminin ən mühüm səviyyəsini təşkil etmişlər.

c) Azərbaycan milli kimlik düşüncəsi və həmin düşüncəni təşkil edən dəyərlər aşıq yaradıcılığı ilə bilavasitə bağlıdır.

d) Aşıq yaradıcılığı milli düşüncə sisteminin və onun əsasında duran milli kimlik dəyərlərinin xəzinəsi kimi daim Azərbaycanlı şüurunu milli ideyalarla zənginləşdirmişdir.

Azərbaycan aşıq sənəti və yaradıcılığının etnik-mədəni coğrafiyası çox geniş olub, tarixi Azərbaycanın hüdudlarını bütövlükdə əhatə edir. Bu mənada, aşıq yaradıcılığından danşarkən bütün Şimali Azərbaycan və Cənubi Azərbaycan, o cümlədən tarixi Səfəvi imperiyasının bütün mədəni hüdudlarını əhatə etmək zərurəti yaranır.

Şimali Azərbaycan aşıq mühitləri, əsasən, iki yerə – qərb və şərq aşıq mühitlərini bölünür. Şərq aşıq mühiti bütövlükdə Şirvan aşıq yaradıcılığını əhatə edir. Qərb aşıq mühitləri isə Göyçə, Dərələyəz, Ağbaba, Gəncəbasar və s. kimi mühitləri çevrələyir. Qeyd etmək lazımdır ki, qərb aşıq mühitləri, əsasən, hazırda Qərbi Azərbaycan adlandırdığımız qədim Azərbaycan torpaqlarındakı aşıq mühitlərindən təşkil olunur.

Çox yüksək sənət və yaradıcılıq ənənələrinə malik olan Göyçə aşıq mühiti Miskin Abdal, Aşıq Alı, Aşıq Ələsgər, Şair Məmmədhüseyn, Məhərrəm Alçalı, Aşıq Əziz, Aşıq Aydın, Musa Ağkilsəli, Aşıq Şirin, Çoban Məhəmməd, Nəcəf Daşkəndli, Usta Abdulla, Qurban Göyçəli, Aşıq Talıb, Aşıq Mehdi, Zodlu Aşıq Ağayar, Aşıq Savad, Mahmud Ardanışlı və s. kimi aşıq və el şairlərini, Dərələyəz aşıq mühiti Aşıq Cəlil, Aşıq Qəhrəman, Aşıq Nəbi Əhmədoğlu, Aşıq Xanlar, Aşıq Məhəmməd, Axtalı Aşıq Qafar, Qulu Bayramoğlu, Bəhmən Sallılı, Aşıq Fətulla, Aşıq Behbud, Aşıq Əli Fərmanoğlu, Aşıq Şükür, Aşıq Talıb, Aşıq Abdulla və başqa sənətkarları, Qaraqoyunlu bölgəsi Əsəd Rzayev, Məhəmməd Rzayev, Cahad Qaraqoyunlu, Səlim Abdullayev, Kərəm Bəkiroğlu, İxtiyar Qocayev və başqa sənətkarları, Dərəçiçək mahalı XV əsr sənətkarı Ozan Heydər, yenə də eyni məkandan olmuş Ozan İbrahim (XVI əsrin sonu – XVII əsrin əvvəlləri) və s., Ağbaba bölgəsi Xəstə Hasan, Qarani, Çıldırlı Şenlik, Çorlu Məhəmməd və s. kimi sənətkarları aşıq sənəti tarixinə bəxş etmişdir.

Qərbi Azəbaycan aşıqlarının yaradıcılığında estetik dəyərlərə gəlincə, öncə deməliyik ki, "estetika" termini bütün leksik və fəlsəfi mənaları ilə bədii gözəllik anlayışı ilə bağlıdır. Bu cəhətdən, Qərbi Azəbaycan aşıqlarının yaradıcılığı bütün

Azərbaycan aşıq sənəti tarixində olduğu kimi yüksək estetizmi ilə seçilir. Yəni bu yaradıcılıq bütövlükdə bədii gözəlliyə xidmət etməklə insanlarda gözəllik haqqında duyğular oyatmış, hisslər tərbiyə etmişdir.

Qərbi Azəbaycan aşıqlarının yaradıcılığında estetizmin, əsasən, dörd səviyyəsi müşahidə olunur:

1. Dini-ilahi dəyərlərlə bağlı mənəvi gözəlliklərin tərənnümü;
2. Məhəbbətlə bağlı gözəlliklərin tərənnümü;
3. Təbiətlə bağlı gözəlliklərin tərənnümü;
4. İctimai dəyərlərlə bağlı gözəlliklərin tərənnümü.

Dini-ilahi, sufi-irfani dəyərlər özünü xüsusilə Göyçə aşıq mühitindəki sənətkarların yaradıcılığında göstərmişdir. Bu cəhətdən Miskin Abdalı, yaxud Aşıq Ələsgər kimi bir çox nəhəng sənətkarların adlarını çəkmək olar. Lakin bu mühitdə elə sənətkarlar olmuşdur ki, onlar bilavasitə dini-təsəvvüfi poeziya ilə birbaşa bağlı olmuş, əsasən, onu təmsil etmişlər. Bunlardan Şair Məmmədhüseynin yaradıcılığı səciyyəvidir.

Arzu Məmmədova yazır ki, “Şair Məmmədhüseynin yaradıcılığında dini-ilahi dəyərlərin tərənnümü aparıcı xəttdir. Onun şeirlərində, xüsusilə dini mövzuda olan şeirlərində bu mövzu dolğun, canlı şəkildə ifadə olunmuşdur. Sənətkarın dini mövzuda olan şeirlərini nəzərdən keçirdikdə məlum olur ki, o, Allah, Quran, Məhəmməd peyğəmbər (s.) və onunla bağlı hədislər, Həzrət Əli (ə.), on iki imam, Qiyamət günü və s. mövzularında şeirlər qoşmuşdur” (7, s. 48).

Şair Məmmədhüseyn vergili sənətkar hesab olunmuşdur. O, özü bu barədə belə demişdir:

...Ey biçarə Məmmədhüseyn,
Dünya xali olmasa,
Bu vergi haqq vergisidi,
Kimsəyə qail olmasa.
Dərdin demə dərd bilməzə,
Dərdinnən halı olmasa,
Cəhd eləmək fani şeydi,
Haqdan nəzər olmasa (2, 46).

Qeyd edək ki, Qərbi Azərbaycan aşıqlarının yaradıcılığındakı dini-ilahi dəyərlər, əsasən, Həzrət Əli kultu ilə bağlıdır. Əli obrazı Göyçə insanları üçün canlı bir övliya, hər zaman üz tuta biləcəkləri, dərdlərini söyləyib dərman istəyəcəkləri varlıq idi. Şair Məmmədhüseyn də bir şeirində birbaşa Həzrət Əlidən kömək istəyir:

Çağırram pirim Əlini,
Ağamdan imdad istərəm.
Cəbrayılın şapərini
Atandan imdad istərəm.

Sığındım Əli tək mərdə,
Eləsin dəva dərdə.
Qul edib özünü Bərbərdə
Satandan imdad istərəm.

Əlinin Abbas balası,
Darda qalanın çarəsi.
Min batman Xeybər qapısı
Açandan imdad istərəm.

Məmmədhüseynin bu çağını,
Fələk, qırma budağını.
O ağ divin barmağını
Çatandan imdad istərəm (2, 43).

Şeirdə tərənnüm olunan Əli obrazının övliyalıq xüsusiyyətləri aşağıdakı kimi əks olunmuşdur:

a) Əli – pirdir, ondan imdad istənilir;
b) O, Mələk Cəbrayılın şapərini atmışdır;
c) Əli dərdlərə dəva edəndir;
ç) Özünü ali dəyərlər naminə qul kimi Bərbərdə satmışdır;
d) Əlinin Abbas balası (övladı) darda qalanların çarəsidir;
e) Əli min batmanlıq Xeybər qapısını açmağı bacarmışdır;
ə) O, ağ divin barmağını sındırmışdır.

Ümimiyyətlə, məhəbbətin tərənnümü aşıq yaradıcılığının, belə demək mümkünsə, “canını”, ruhunu təşkil edir. Osman Əfəndiyevin yazdığı kimi: “Aşıq poeziyasında sövq-təbii olaraq dünyəvi gözəllik, insanın, təbiətin göz-könül oxşayan ahəngdar varlığı, fiziki kamilliyi uydurma, xəyali gözəlliklərə qarşı qoyulur. Aşıq sevgilisinin gözəllik təcəssümü olan gözlərində, al yanağında, büllur buxağında, inci kimi dişlərində, nazəndə yerişində, həmahəng qamətində, incə gülüşündə, ağıllı danışığında bu gerçək dünyanın gözəlliklərinin zirvəsini, tacını görür. Ancaq fiziki baxımdan insan və təbiət gözəlliyi aşığın zövqünü nə qədər oxşasa belə, bu gözəllik könül dünyasının ucalığından, zənginliyindən kənarda təsəvvür edilmir. Aşıq təbiəti düşünəndə belə, onun fikri insan varlığına bağlıdır. Eyni zamanda insanın, xüsusən də öz sevgilisinin bütün xarici gözəlliyini yüksəkliyə ucaldanda belə, o heç vaxt xarici gözəllik əsiri olaraq qalmır. Əslində, xarici gözəlliyin tərənnümü gerçək aləmin gözəlliyini təsdiq elədiyi kimi, insan varlığının mənəvi aləmini düşünməyə, onun ucalığını anlamağa sövq edir” (3, s. 51).

Bu mənada, Qərbi Azərbaycan aşıqlarının da yaradıcılığında insan gözəlliyinin, məhəbbətin tərənnümü xüsusi yer tutur. Aşıq şeirinin bu istiqaməti gözəlləmə şeirindən təşkil olunur. “Gözəlləmə” – janr olmayıb, gözəlliyin tərənnümü ilə bağlı şeirlərin ümumi bədii-estetik adıdır. Əziz Mirəhmədovun yazdığı kimi: “Çox vaxt qoşma və müxəmməs formalarında yaradılan gözəlləmədə şair, yaxud

aşıq qəşəng qız və gəlinlərin, bəzən də sevgililərinin gözəlliyini, ağıl və mərifətini təsvir, onlara hörmət və məhəbbət duyğularını tərənnüm edirlər" (8, s. 111).

Gözəlləmə şeirinin yeganə obyekti bilavasitə qadın gözəlliyidir. Mürsəl Həkimovun qeyd etdiyi kimi: "Qadın gözəlliyi, vətən təbiətinin füsunkarlığı aşıqların telli sazına söz incilərindən bəzək vermişdir. Klassik aşıqlar öz şeirlərində təmiz, ləkəsiz, boyasız, müqəddəs duyğuları tərənnüm etmişlər. Onlar lirik şeirlərində aşiqin məhəbbət yolundakı cəfakeşliyini, sabitqədəm olmasını, aşiq ilə məşuqun iztirab və sevinclərini təsirli boyalarla vermişlər" (5, s. 228).

Məsələn, Aşıq Qəhrəman öz şeirində Zərnişan xanımı gözəlliyin zirvəsi tək tərənnüm edir:

Məndən uzaq gəzən Zərnişan xanım,
Eləmə bəxtini qara, sevdiyim.
Sənə qurban olsun bu şirin canım,
Vurma ürəyimə yara sevgilim... (6, s. 43)

Aşıq Alının gözəlləmə şeirinin obyekti olan Tükəzban öz gözəlliyi ilə sənətkarın ağlını başından almış, onu öz varlığının simasında insanlığın aşiqinə çevirmişdir. Tükəzbanın gözəlliyi təbiətin gözəlliyi ilə həmahəng olmaqla dünyanı sənətkarın gözündə gülüstana çevirmişdir:

Sənsən qönçə dəhan, sərvi xuraman,
Yaraşırsan bağça-bağa, Tükəzban.
Bəyaz sinə, gözü şəhla, qaş kaman,
Müştaq oldum ay qabağa, Tükəzban... (6, s.122)

Ümumiyyətlə, Azərbaycan-türk insanı özünü həmişə təbiətlə bağlı hiss etmiş, təbiəti öz varlığının bir hissəsi, doğması kimi zənn etmişdir. Bu cəhətdən, aşıq poeziyasında təbiətin tərənnümü xüsusi yer tutur. O.Əfəndiyev qeyd edir ki, "Azərbaycan şifahi xalq ədəbiyyatının, o cümlədən aşıq sənətinin inkişafında təbiəti, onun hadisələrini ideallaşdırmaq mühüm yer tutur. Bu isə təbiidir. Xalqın bədii düşüncəsi özünün ilk qaynağını təbiətlə insanın təmasından götürmüşdür. Hələ mifoloji mənəvi inkişaf mərhələsində ulduzlar aləminin sirli-sehrli varlığı, təbiətin ecazkar gözəllikləri ideallaşdırılırdı. Getdikcə təbiət xalqın estetik idealının əsas məhvərindən birinə çevrilir. Təbiət bir tərəfdən maddi nemətlər ocağı kimi tərənnüm edilir, digər tərəfdən isə təbiət estetik duyğuların tərbiyəçisi, gözəllik ocağı kimi vəsf edilir. Bu baxımdan, xalq yaradıcılığının digər növləri ilə aşıq sənəti arasındakı yaxınlıq özünü daha aydın göstərir. El aşıqları təbiət gözəlliyinin insana ecazkar təsirini müxtəlif variantlarda öz dinləyicilərinə çatdırırlar. Əsasən gözəlləmələrdə vəsf olunan gözəlin təbiət gözəlliyi ilə müqayisəsinə fikir verilir. Aşıq insan varlığının uca olduğunu yaxşı anlayır, insanın həm fiziki, həm mənəvi gözəlliyini ülviləşdirir. Bununla belə insanı təbiətdən ayırmır" (3, 58).

Qərbi Azərbaycan aşıqları və el şairlərinin yaradıcılığında təbiətə estetik münasibət, yəni təbiət gözəlliklərinin bədiiləşdirilməsi son dərəcə yüksək səviyyədədir. Bu, onunla bağlıdır ki, Qərbi Azərbaycan özünün təbiəti baxımından son

dərəcə füsunkar bir bölgədir və ilin bütün fəsillərində insanları öz gözəlliyinin vurğununa, aşiqinə çevirmiş, onları yaşamağa ruhlandırmışdır.

Qərbi Azərbaycanlı aşıq və el şairlərinin yaradıcılığına bir küll halında nəzər saldıqda burada təbiətin bütün gözəlliklərinin tərənnüm olunduğunu görürük. Onların içərisində dağlara həsr olunmuş şeirlər xüsusi məna silsiləsini təşkil edir. Məsələn, XIX əsrin ən nəhəng aşığı Aşıq Ələsgərin yaradıcılığında bu mövzuda bir neçə şeirə rast gəlirik:

Bir ay yarım nobahardan keçəndə
Car olur köksündən sellərin, dağlar!
Çalxanır sonalar, çığışır qazlar,
Zəmzəm zümzüməli gölləri dağlar!... (6, 126)

Bu parçada son dərəcə cazibədar təbiət lövhəsi təsvir olunmuşdur: dağların qarı əriyib selə-suya dönür, sonalar, qazlar uçuşur, dağ bulaqları müqəddəs Zəmzəm bulağının suyu kimi insanlara mənəvi və cismani şəfa verir.

Aşıq eyni mövzudakı digər bir şeirində deyir:

Bahar fəsli, yaz ayları gələndə
Süsənli, sünbüllü, lalalı dağlar.
Yoxsulu, ərbabı, şahı, gədanı
Tutmaz bir-birindən aralı dağlar… (6, 127)

Bu şeir parçasında (Qərbi) Azərbaycan insanının mənəvi dəyərlər dünyasında, yəni ənənəvi təsəvvürlər sistemində (mifik-əsatiri dünya modelində) dağın hansı rol oynadıığı aydın şəkildə öz təcəssümünü tapmışdır. Dağ burada, sanki bir ana, ata, valideyndir. Bir valideyn öz övladlarını fərq qoymadan sevdiyi, bağrına basdığı kimi dağlar da insanlar arasinda fərq qoymur, onların cəmiyyətin sosial sisteminin hansı pilləsində durmasının dağlar üçün heç bir fərqi olmur. Bu təsəvvürdə biz dərhal dağ kultunun Aşıq Ələsgərin və onun nümunəsində bütün Azərbaycan insanının yaddaşında yaşayan izlərini müşahidə edirik.

Musa Ağkilsəli dağları belə tərənnüm edir:

Kəmənd əldə, səyyad öv bərəsində,
Ovçusu da ağlar, maral da ağlar.
Oxun sədasından, güllə səsindən
Ürküdüb, əyləməz maralı dağlar... (6, 159)

Burada dağ kultunun təsiri özünün bədii-stetik ifadəsini daha dərin lövhələrdə tapmışdır. Ovçu da, maral da sanki dağın övladlarıdır: dağ nə ovçuya (səyyada), nə də marala qıya bilmir. Ovçu ov ovlayıb balalarına ruzi aparmalı, (ana) maral da ovçunun gülləsindən qurtulub balalarının yanına qaçmalı, yediyi dağ otlarından əmələ gəlmiş südü ilə onları əmizdirməlidir. Bu, çox təsirli mənzərədir: dağ bu iki övladının (ovçu və ov) ehtiyacları arasında naçar qalmış və nə edəcəyini bilmir. Ona görə də bu işi taleyin öhdəsinə buraxır.

Qərbi Azərbvaycan aşıq və el şairlərinin yaradıcılığı ictimai gözəlliklərlə bağlı estetik dəyərlərin tərənnümü ilə son dərəcə zəngindir. Ümumiyyətlə, Osman Əfəndiyev göstərir ki, "mənəvi gözəlliyin aşıq şerində təsviri gerçəkliyin gözəlli-

yinə, yüksək mənəviyyata, kamilliyə can atmaq kimi məsələlərlə bağlıdır. Burada estetik hiss, duyğu, həyəcan, zövq kimi estetik münasibətlərə geniş meydan verilir. Həm də bütün bu təsvirlər estetik idealın təcəssümünə xidmət edir. Estetik ideal bir meyar kimi mənəviyyat aləminin gözəllik qanunlarını təsdiqləyir. Ona görə də aşıq poeziyasının estetik problemlərindən danışarkən "mənəvi gözəllik" məsələsi ön plana keçir" (3, 11).

Aşıq və el şairlərinin yaradıcılığında ictimai-estetik dəyərlərin tərənnüm olunduğu şeirlərin xüsusi növü vardır və bu növ "ustadnamə" adlanır. "Ustadnamə" Ə.Mirəhmədovun qeyd etdiyi tək, "ustad sözü", "ustad öyüdü" deməkdir... Belə şeirlər tərbiyəvi, fəlsəfi nəticələri tərənnüm etmək yolu ilə nəsihətamiz fikir söyləyir, məsləhət və öyüd verir" (8, 212).

Prof. M.Həkimov bu mövzu ilə bağlı yazır ki, "aşıq poeziyasında ustadnamələr, əsasən, "Bayatı", "Gəraylı", "Qoşma", "Müxəmməs", "Təcnis", "Divani", "Varsağı", "Heydəri", "Əlif-lam" və s. kimi formalarda yazılır. Ustadnamə – ustad nəsihəti, ustad sözü, ustad vəsiyyəti deməkdir. Bu qəbil öyüdləmələrdə nəsihət, məsləhət, atalıq-böyüklük qayğısı, fəlsəfi ümumiləşdirmə, kainat, cəmiyyət, ailə, məişət, insani keyfiyyətlər, yaxşılıq, gözəllik, mərifət, əqil, kamal, paxıllıq, riya, yamanlıq, yaltaqlıq və s. kimi məsələlər haqqında düşüncələr əks etdirilir. Ustadnamələr də bədii bir növ olmaqla ibrətli xalq kəlamları və atalar sözündən formalaşmışdır" (4, 207-208).

Prof. Məhərrəm Cəfərli də qeyd etmişdir ki, "ustadnamələr ustad nəsihətləridir. Diqqət etsək, bunlarda təqdim edilən nəsihətlər bütün rəngarənglikləri ilə eyni bir məzmunu ifadə edir. Başqa sözlə, ustadnamələrdəki fikirlər hamısı hökm şəklində ifadə olunur. Yəni bunların funksional gücü atalar sözlərinin mədəniyyətdəki funksional gücü ilə eyni mahiyyətlidir" (1, 17).

Ustadnamə şeiri, Arzu Məmmədovun yanaşmasına görə, sadəcə, nəsihətamiz şeirlər olmayıb, bədii-estetik, funksional-idraki baxımdan dərin mənalara malikdir. O, XIX əsr Göyçəli el şairi Məmmədhüseynin ustadnamələrinin əsasında yazır ki, "bu şeirlər sənətkarın zamanla "dialoqudur". El şairi öz zamanına – insanlara üz tutub onları haqq-ədalət yoluna, zülmü, şəri inkar etməyə və bununla dünyanı mənəvi-əxlaqi cəhətdən gözəlləşdirməyə çağırır. Çünki Məmmədhüseynin ictimai gözəllik haqqında poetik idealına görə cəmiyyətdə mənəvi-əxlaqi gözəlliklər olmasa, dünya məhv olar. Bizcə, Şair Məmmədhüseynin, həmçinin bir çox ustad sənətkarların aşıq şeirinin ustadnamə növündən istifadə etmələrinin səbəbi bununla bağlıdır. Onlar ustadnamədən ona görə istifadə etmişlər ki, aşıq şeirinin bu növündə hər cür ictimai düşüncələri, öyüd və nəsihətləri ifadə etmək mümkündür" (7, 77).

Bu fikirdən aydın olur ki, ustadnamə şeirinin bütün mahiyyəti sosial estetizmlə, yəni cəmiyyətdə ictimai gözəlliklərin yaradılması ilə bağlıdır. Bu cəhətdən, poeziyada tərənnüm olunan ictimai gözəlliklər dünyanı məhv olmaqdan, sosial xaosdan, humanitar fəlakətdən qorumağa xidmət edir.

İstənilən Qərbi Azərbaycan aşıq və el şairlərinin ustadnamələrinin estetik qayəsi mənəvi harmoniyanın təcəssümü ilə bağlıdır:

Bir mərd ilə ülfət qılsan mərdana,
Qiyamət pərdəsin çəkərlər üzə,
Müxənnətlər yaxşı gündə dost olar,
Yaman gündə keçib gedər yönünə... (2, 48).

Bu şeir parçasında Şair Məmmədhüseyn insanların diqqətini mərd-namərd, mərd-müxənnət münasibətlərinə cəlb edərək, dünyanın nizamının mərdlərin çiyinləri üzərində durduğunu bəyan etmişdir.

Aşıq Talıb öz ustadnaməsində insanlara dünyanın faniliyini xatırladıb, onları gözəl əməllərə, insanları və dünyanı sevməyə, bir-birinin qədrini bilməyə çağırır:

...Bu dünyada mənəm deyən Rüstəmi-Zal hanı?!
Cəm eylədi Şəhra-Zəri, ol Dal ibni-Dal hanı?!
Şəddat hanı, Nəmrud hanı, Fironu Salsal hanı?!
Onlar qalmadı dünyada, aləmi quran durur... (6, 127)

Şeirdə adları çəkilən obrazlar Şərq şeirində gücün, qüvvətin, hakimiyyətin, şöhrətin zirvəsini təmsil edən simvolik surətlərdir. Lakin həmin adamlar bütün güclərinə, malik olduqları hakimiyyətlərinə baxmayaraq, fani dünya qarşısında təslim olmuş, fənayə uğramışlar. Bu mənada, şeirin bütün ideyası *"Onlar qalmadı dünyada, aləmi quran durur"* misrasında ifadə olunmuşdur. Aşıq Talıbın tərənnüm etdiyi ictimai-estetik dəyərə görə, dünyada gördüyümüz hər nə varsa – hamısı fani, lakin "dünyanı quranın", yəni yaradanın (Allahın) özü – baqidir. Sənətkar bununla insanları Allahın bəyəndiyi əməlləri etməyə, onun müqəddəs "Quran"la yer üzünə endirdyi qanunlarla yaşamağa çağırır. Aşıq Talıba görə, yer üzündə sülh, əmin-amanlıq, asayiş, hörmət-izzət yalnız Allahın yolu ilə getməklə mümkündür.

Qərbi Azərbaycan aşıq və el şairlərinin yaradıcılığından tədqiqata cəlb olunmuş bu nümunələr göstərir ki, həmin poeziyada tərənnüm olunan bütün estetik dəyərlər ilahi nurla məna kəsb etmişdir. Aşıq və el şairləri insanı, təbiəti, canlı və cansız dünyanı Allahın yaratdığı varlıqlar kmi qəbul etmiş, insana və təbiətə olan hörmət-izzəti, sevgi və məhəbbəti Uca Allaha olan sevgi kimi tərənnüm etmişlər. Elə Qərbi Azərbaycan aşıq və el şairlərinin yaradıcılığındakı estetik dəyərlər bu səbəbdən bu gün də yaddaşlarda yaşamaqda, sevilməkdə və insanlara gözəllik aşılamaqdadır.

## ƏDƏBİYYAT

1. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası. Bakı: Elm, 2000, 266 s.

2. Daşkəndli Şair Məmmədhüseyn. Yatıb oyanmaz, oyanmaz... / Toplayıb tərtib edəni Səyyad Süleyman oğlu Şairov. Bakı: Nurlan, 2005, 240 s.

3. Əfəndiyev O. Aşıq poeziyasının estetik problemləri. Bakı: Azərnəşr, 1983, 116 s.

4. Həkimov M. Azərbaycan aşıq şeirinin şəkilləri və qaynaqları. Bakı: Maarif, 1999, 376 s.

5. Həkimov M. Aşıq sənətinin poetikası. Bakı: Səda, 2004, 698 s.

6. Qərbi Azərbaycan aşıqları (poeziya antologiyası). Bakı: “Zərdabi nəşr” MMC nməşriyyatı, 2023, 512 s.

7. Məmmədova A. Şair Məmmədhüseyn: həyatı, mühiti və yaradıcılığı. Bakı: Nurlan, 2018

8. Mirəhmədov Ə. Ədəbiyyatşünaslıq. Ensikdlopedik lüğət. Bakı: Azərbaycan Ensiklopediyası, N-PM, 1998, 240 s.

9. Rzasoy S. Qərbi Azərbaycanda aşıq yaradıcılığı: milli yaddaş və tarix // “Ulduz” jurnalı, may 2024, s. 25-29.